Public Disclosure Authorized

Public Disclosure Authorized

SFG1631

**AZƏRBAYCAN RESPUBLİKASI**

**Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu (MKSİF)**

# ƏTRAF MÜHITIN İDARƏEDILMƏ PLANININ ÇƏRÇIVƏ SƏNƏDI

**Bakı 2015**

# QISALTMALAR

| | |
|---|---|
| MKYŞGİL | Məcburi Köçkünlərin Yaşayış Şəraiti və Gəlir İmkanları Layihəsi |
| MKSİF | Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu |
| MB | Maliyyə Vasitəçisi |
| TTNDA | Fövqəladə Hallar Nazirliyinin Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi |
| ƏMTAMP | Ətraf Mühitə Təsirin Azadılması və Monitorinq Planı |
| ƏMİP | Ətraf Mühitin İdarəedilməsi Planının Çərçivə Sənədi |
| EB | Ekoloji Baxış |
| MEQ | Məhdud Ekoloji Qiymətləndirmə |
| ƏMTQ | Ətraf mühitə Təsirin Qiymətləndirilməsi |
| BYİB | Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı |
| BİA | Beynəlxalq İnkişaf Assosiasiyası |
| QHT | Qeyri-Hökumət Təşkilatı |

# MÜNDƏRİCAT


**ÜMUMİ MƏLUMAT**

**Ətraf mühitin qiymətləndirilməsi**

A. BYİB Təhlükəsizlik Siyasəti
B. Azərbaycan Respublikasının qanunvericiliyi
*B.1. Ekoloji qanunvericilik və qaydalar*
*B.2. Tikinti normaları və qaydaları*
C. Mikrolayihələrin ətraf mühitə potensial təsiri
D. İnstitusional mexanizmlər
E. Ekoloji Qiymətləndirmənin icra mərhələləri

**Ekoloji Qiymətləndirməyə əlavələr**

Əlavə 1. Ətraf mühit üzrə məlumat vərəqəsi
Əlavə 2(a). Ətraf mühitə təsir kateqoriyasının seçimi üzrə ümumi nəzarət cədvəli
Əlavə 2(b). Ətraf mühitə təsir dərəcəsi üzrə seçim vərəqəsi
Əlavə 3. Ekoloji Baxış (EB) üzrə nəzarət vərəqəsi
Əlavə 4. Məhdud Ekoloji Qiymətləndirmə (MEQ) üzrə nümunə forması (*içməli su)*
Əlavə 5. Ətraf mühitin idarədilməsi (ƏMİP) forması

A. Təsirlərin zəiflədilməsi planı

B. Monitorinq planı

Əlavə 6. Mikrolayihələrin nəzarət vərəqəsi
*Əlavə 6.1. Nəzarət vərəqəsi: Səhiyyə obyektləri*
*Əlavə 6.2. Nəzarət vərəqəsi: Təhsil müəssisələri/İcma mərkəzləri*
*Əlavə 6.3. Nəzarət vərəqəsi: Su təchizatı*
*Əlavə 6.4. Nəzarət vərəqəsi: Kənd və rayon yolları*
*Əlavə 6.5. Nəzarət vərəqəsi: Kanalizasiya və drenaj sistemləri*
*Əlavə 6.6. Sənətkarlıq fəaliyyəti*
*Əlavə 6.7. Kənd təsərrüfatı fəaliyyəti*
*Əlavə 6.8. Maldarlıq fəaliyyəti*
*Əlavə 6.9 İstirahət və əyləncə məkanları*
*Əlavə 6.10. Kiçik sənaye məhsullarının istehsalı*
Əlavə 7. İş həcmlərinin cədvəli üzrə nümunə (*MKSİF-in podratçı təşkilatla bağladığı müqavilənin ayrılmaz hissəsidir*)
Əlavə 8. ƏMİP üzrə konsultasiyaların xülasəsi

# ÜMUMİ MƏLUMAT

Məcburi Köşkünlərin Yaşayış Şəraiti və Gəlir İmkanlarının Dəstəklənməsi Layihəsi (MKYŞGİDL) əsasən bərpa xarakteri daşıyan işləri əhatə etdiyi üçün mühüm ekoloji məsələlərin qaldırılması gözlənilmir. Lakin infrastruktur mikrolayihələrin identifikasiya və qiymətləndirmə mərhələsində ekoloji təsirlərə baxılması, ekologiyaya təsirlər üçün seçim mexanizmi və onların zəiflədilməsi üzrə planların hazırlanması və ekoloji inkişafın monitorinqi lazımdır.

Bu Ətraf Mühitin İdarəedilmə Planı MKYŞGİDL üzrə maliyyələşəcək mikrolayihələrin ekoloji məsələlərinin həlli üçün çərçivə sənədidir.

Ətraf Mühitin İdarəedilməsi Planı (ƏMİP) 2004-cü ildə Məcburi Köçkünlərin İqtisadi İnkişafına Yardım Layihəsi üçün tərtib edilmiş Ətraf Mühitin İdarəedilmə Planının Çərçivə Sənədi əsasında hazırlanmışdır. Ətraf Mühitin İdarəedilməsi Planı 2011-ci ildə Dünya Bankı tərəfindən maliyyələşdirilən Məcburi Köçkünlərin Yaşayış Şəraiti və Gəlir İmkanlarının Dəstəklənməsi layihəsi üçün hazırlanmışdır və 2015-ci ildə Əlavə Maliyyələşmə layihəsi üçün yenillənmişdir.

Əlavə Maliyyələşmə Layihəsinin əsas məqsədi kiçik həcmli infrastruktur layihələri və mikro-kredit proqramlarının həyata keçirilməsindən ibarətdir.

MKYŞGİD layihəsi 3 komponentdən ibarətdir:

***(i)*** ***məcburi köçkün icmaları tərəfindən prioritet kimi müəyyən edilmiş tələbatdan irəli gələn kiçik miqyaslı xidmət və infrastruktur mikrolayihələrinin maliyyələşdirilməsi;***

Bu komponentə sosial (*tibb məntəqələri, uşaq bağçaları, məktəblər, icma mərkəzləri)*, iqtisadi *(çınqıllı yollar, su və elektrik təchizatı şəbəkələri)* infrastrukturların, sanitariya obyektlərinin bərpası ilə bağlı mikrolayihələrin maliyyələşdirilməsi daxildir.

***(ii)*** ***məcburi köçkünlərin kompakt halda məskunlaşdıqları ərazilərin bərpası;***

***(iii)*** ***bacarıqlar, icmanın səfərbərliyinə sərmayə qoyulması və məcburi köçkünlərin müstəqil qazanc əldə etmək qabiliyyətlərini artıracaq fəaliyyətlərin maliyyələşdirilməsi;***

Ekoloji təsirlər yalnız birinci və ikinci komponentlər, yəni infrastruktur mikrolayihələr və mikrokreditlər ilə əlaqədar gözlənilir.

Layihə ərazisi. Layihə Azərbaycanın ərazisində məskunlaşmış və əsasən 100-dən 1000-dək əhalisi olan məcburi köçkün icmalarını məqsəd kimi götürəcəkdir. Üç il ərzində cəmi təqribən 200 infrastruktur mikrolayihə icra ediləcəkdir.

# EKOLOJİ QİYMƏTLƏNDİRMƏ

## A. BYİB Təhlükəsizlik siyasəti

Dünya Bankı Bankın maliyyələşdirilməsi üçün təklif edilən layihələrin Ekoloji Qiymətləndirilməsini (EQ) tələb edir ki, onların ekoloji cəhətdən etibarlı və dayanıqlı olmasının təmin edilməsinə kömək etsin və bununla da qərar çıxarmanı təkmilləşdirsin (OP 4.01. Yanvar 1999).

Ekoloji Qiymətləndirmə elə bir prosesdir ki, onun həcmi, dərinliyi və təhlil tipi təklif olunan layihənin potensial ekoloji təsiri, təbiəti və həcmindən asılıdır. EQ - layihənin potensial ekoloji risklərini və onun əhatə etdiyi ərazilərə təsirini qiymətləndirir; layihənin alternativlərini yoxlayır; layihənin seçiminin, yerinin, planlaşdırılmasının, dizaynının və icrasının inkişaf

etdirilməsi yollarını, layihənin icrası boyu zərərli ekoloji təsirləri minimumlaşdıraraq, zəiflədərək və ya kompensasiya edərək və müsbət təsirləri möhkəmləndirərək müəyyənləşdirir. Bank zəiflədiyi və ya kompensasiyaedici tədbirlərdən daha çox, mümkün olan halda, profilaktik tədbirlərə üstünlük verir.

EQ – təbii ətraf mühiti; insan sağlamlığı və təhlükəsizliyini; sosial aspektləri (*məcburi köçürmələr, yerli adamlar və mədəni irs obyektləri)*; və trans-sərhəd və qlobal ekoloji aspektləri nəzərə alır. O, eyni zamanda layihə və ölkə vəziyyətində dəyişənləri; ölkə üzrə ekoloji tədqiqatların nəticələrini; yerli ekoloji tədbirlər planlarını; ölkənin ümumi siyasi çərçivəsini; yerli qanunvericiliyi; ekoloji və sosial aspektlərə aid institusional imkanları; və ölkənin müvafiq beynəlxalq müqavilələr və razılaşmalar üzrə layihənin fəaliyyətlərinə aid öhdəliklərini də nəzərə alır. Dünya Bankı, ET zamanı müəyyən edildiyi kimi, belə ölkə öhdəliklərinə əks olan layihə fəaliyyətlərini maliyyələşdirmir.

MKİİYL üzrə EQ prosesinin əhatə dairəsi və dərinliyi təklif olunan mikrolayihələrin spesifik xüsusiyyətləri nəzərə alınaraq müəyyənləşdirilir. MKİİYL üzrə maliyyələşdirilən icma infrastruktur mikrolayihələrinin, bir qayda olaraq, tam-həcmli Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi prosesinə təkan verməyəcəyi gözlənilir. EQ – potensial icma əsaslı mikrolayihələrin identifikasiyası, qiymətləndirilməsi, icrası və monitorinqi prosesin ayrılmaz hissəsidir.

EQ prosesi zamanı nəzərə alınacaq əsas məsələlərə aşağıdakılar daxildir:

- Azərbaycanda mövcud olan ekoloji-normativ aktlarla uyğunluq;
- sosial təhlil ilə əlaqələr;
- alternativlərin təhlili;
- ictimai iştirak və təsiri olacaq adamlarla və təşkilatlarla məsləhətləşmələr;
- informasiya yayımı.

## B. Azərbaycanın Respublikasının qanunvericiliyi

### B.1. Ekoloji qanunvericilik və qaydalar

Layihə üzrə aparılan fəaliyyətlər Azərbaycanın cari qanunlarına və qaydalarına uyğun gələcəkdir. Ümumiyyətlə, mikrolayihələr və mikrokreditlər ətraf mühitin pisləşməsinə gətirib çıxarmayacaqdır.
Azərbaycanda ətraf mühitin qorunması – «Ətraf mühitin mühafizəsi haqqında» Qanunla (1999) tənzimlənir. Qanun ətraf mühitin qorunması üzrə dövlətin, ictimai assosiasiyaların və vətəndaşların hüquq və vəzifələrini müəyyənləşdirir. O, Ətraf Mühitə Təsirin Qiymətləndirilməsinin hazırlanması üçün tələb olunanları, ekoloji keyfiyyət standartlarını, ekologiyaya təsir edən fəaliyyətlərə icazə verilməsi üçün tələb olunanları, ekoloji çirklənmənin profilaktikası və azaldılması, ekoloji monitorinq və nəzarəti, qanun pozucuları üzərinə qoyulan sanksiyaları və ictimaiyyətin rolunu müəyyənləşdirir. Sanitar-epidemioloji təminat, torpaq islahatı, enerji, səhiyyə, su, meşələr, kadastr və torpaqdan istifadə, sənaye və ev tullantıları, fauna, balıq yetişdirmə, ekoloji təhlükəsizlik, su təchizatı və kanalizasiya, atmosferin qorunması və xüsusi qorunan ərazilər kimi spesifik məsələləri tənzimləyən digər qanunlar 1992-ci ildə qəbul edilmişdir. Buna əlavə olaraq, Nazirlər Kabinetinin çoxsaylı qərarları verilmişdir ki, ekoloji qanunvericiliyin və müvafiq Prezident fərman və sərəncamlarının məğzinin şərh edilməsinə kömək edilsin.
"Ətraf mühitin mühafizəsi haqqında" Qanunun 42-ci maddəsinə əsasən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi – yeni investisiya layihəsinə başlamamışdan əvvəl layihəni hazırlayanlar tərəfindən işə götürülən müstəqil ekspertlərin hazırladığı Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi ərizəsinin və sənədləşmənin yoxlanılması üçün səlahiyyətli orqandır.
Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üçün hüquqi baza yaradan digər əsas qanunlar «Ekoloji təhlükəsizlik haqqında» Qanun (1999) və Azərbaycanda Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi prosesi haqqında Əsasnamədir (1996). ƏMTQ üzrə ərizə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin baş ofisinə və ya yerli ofisə təqdim edilə bilər. ƏMTQ müraciətinə baxılma prosesində Ekologiya və Təbii Sərvətlər Nazirliyi aşağıdakı kriteriyaları qiymətləndirir:

- təklif olunan layihə yeni texnologiyaları nəzərdə tuturmu;
- təklif olunan proseslər və ya texnologiyaların mürəkkəbliyi və həcmi;
- gözlənilən ekoloji nəticələr;
- təklif olunan layihə yerli əhali üçün əhəmiyyətli dəyişikliklər yaradacaqmı; və
- təklifə ictimai rəy.

### *B.2. Tikinti normaları və qaydaları*

Azərbaycanda mühəndis-axtarış, layihə və tikinti üzrə normalar və qaydalar Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən idarə edilir. Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən həyata keçirilən nəzarət tədbirlərin aparılması qaydaları Nazirlər Kabineti tərəfindən (2003 il) təsdiq edilmişdir. Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin qaydalarına əsasən bütün tikinti işləri ekoloji tələblər nəzərə alınmaqla aparılmalıdır. Mövcud tikinti qaydalarına əsasən tikinti və yaxud təmir işləri yalnız təsdiq edilmiş layihə (*dizayn*) sənədləri əsasında aparıla bilər. Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi mühəndis-axtarış və layihə işlərinin aparılması üçün xüsusi lisenziyalar verir (*tikinti işləri üçün lisenziya tələb olunmur*).
MKSİF infrastruktur mikrolayihələrin dəqiq qiymətləndirilməsi (*dizayn*) üçün yalnız Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi dan lisenziya almış konsultant təşkilatları jəlb edəjəkdir. Konsultant təşkilatlar mikrolayihələrin dəqiq qiymətləndirilməsi zamanı mikrolayihənin bütün aspektlərini (*və o cümlədən ekoloji aspektini*) qiymətləndirməlidir və hazırladığı layihə (*dizayn*) sənədlərini bütün əlaqədar təşkilatlarla razılaşdırmalıdır. Konsultant

mikrolayihə üzrə hazırladığı hesabatda ətraf mühitlə bağlı bölmə hazırlamalıdır və burada ətraf mühitə təsir edən mənfi amilləri aradan qaldırmaq üzrə lazım olan tədbirləri göstərməlidir.
Bərpa xarakterli kiçik miqyaslı infrastruktur mikrolayihələrin ətraf mühitə təsiri nisbətən az olduğu üçün bu mikrolayihələr üzrə hazırlanmış layihə-tender sənədləri icma və yerli istismar təşkilatları ilə razılaşdırılması kifayət sayılır. Yeni tikinti ilə bağlı mikrolayihələr ekologiya, yanğın mühafizəsi və digər əlaqədar orqanları ilə razılaşdırılır.

## C. Mİkrolayihələrin potensial ekoloji təsirləri

### İnfrastruktur mikrolayihələr

Hər bir təsir üçün qəbul oluna biləcək zəiflədici tədbirlər hər bir mikrolayihə növü üzrə əlavələrdə təfərrüatlı verilmiş və aşağıda ümumiləşdirilmişdir. Lakin, təsirlərin dərəcəsi və həcmi öz növləri və həcmlərinə görə fərqlənəcəyinə görə, zəiflədici tədbirlər də dəyişə bilər. Konkret fəaliyyətlər üzrə nəzarət vərəqələri 6.1-6.10 əlavələrində verilmişdir və forma mikro-layihə icraçısı tərəfindən doldurulmalıdır.

### i. İnfrastruktur mikro-layihələri

MKYŞGİD layihəsi çəçivəsində həyata keçirilən mikro-layihələrə üzrə infrastruktur mikrolayihələrə tibb məntəqələri, uşaq bağçaları, məktəblər, icma mərkəzləri, kənd *(çınqıl örtüklü)* yolları, su və elektrik təchizatı, kanalizasiya və drenaj şəbəkələri və məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları yataqxanalar və ictimai yaşayış binalarının bərpası daxildir.

Tikinti və Ümumi Təsirlər. Ümumiyyətlə, hər bir mikrolayihənin tikintisi üçün ekoloji məsələlərə – ictimaiyyət və tikinti işçilərinin sağlamlığına təhlükə, səs-küy, havanın keyfiyyətini korlayan tozun yaranması, torpaq və/ya suyun neft və mazutdan çirklənməsi, tullantı materialları, yerüstü axınlar və s.; qrunt torpaqların ekskavatorla qazılması və digər artıq materialların torpağa basdırılması, ekoloji cəhətdən həssas sahələrdə risklər, flora və faunanın məhvi riski və s. kimi bir və ya bir neçə ekoloji təsirlər daxil olacaqdır.
Hər bir mikrolayihənin icra müddətinin əsasən 4 aydan çox olmaması gözlənildiyinə görə və işlərin eyni zamanda hər bir sahədə ola bilməyəcəyinə görə, benefisiarlar təsirlərin bəzilərini yalnız qısa müddətdə hiss edə bilərlər. Lakin, bəzi təsirlər eyni zamanda uzun müddətli ola bilər, məsələn, səs-küy, ekoloji cəhətdən həssas sahələrə təsirlər və s. Bu təsirlər/risklər, aşağıda və müvafiq əlavələrdə təklif edildiyi kimi, hər bir mikrolayihələrdə spesifik tədbirlər vasitəsilə zəiflədilə bilər.
MKSİF-in əvvəlki Azad Olunmuş Ərazilərin Bərpası layihəsi çərçivəsində icra etdiyi infrastruktur mikrolayihələrin əksəriyyəti (*təqribən 75%*) bərpa xarakterli olmuşdur. Hazırda MKSİF-də rəsmi qeydiyyata alınmamış məcburi köçkünlərin təqdim etdiyi 200-dən artıq mikrolayihə vardır. Məcburi köçkün icmalarının prioritet problemlərinin həlli ilə bağlı olan bu siyahının təhlili göstərir ki, təqdim edilmiş icma infrastruktur mikrolayihələrin 90%-ə qədəri bərpa xarakteri daşıyır. Bu mikrolayihələrin ətraf mühitə təsiri minimal olması gözlənilir.
Sosial obyektər: tibb müəssisələri, uşaq bağçaları və məktəblər, icma mərkəzləri. Tibb müəssisələri ilə bağlı mikrolayihələrdən ambulator müalicə üsulla işləyən tibb obyektlərin reabilitasiyasına üstünlük veriləcəkdir. Məcburi köçkünlər tərəfindən məktəblərə dair təqdim edilən mikrolayihələrdən üstünlük əsasən sadələşdirilmiş məktəb (*sinif otaqları və müəllimlər otağından ibarət*) layihələrinə veriləcəkdir. Sosial obyektlərlə bağlı binalar əsasən kiçik həcmli olacaqdır və belə binaların təmir-bərpası və yaxud tikintisi ilə əlaqədar təsirlər də kiçik olacaqdır. Bu mikrolayihələrlə bağlı əsas problem yığılmış tullantıların kənarlaşdırılmasından ibarət olacaqdır. Xüsusilə vacibdir ki, tibb məntəqələrində yığılan tullantılar məsələsinə

mikrolayihənin dəqiq qiymətləndirilməsi (*dizaynı*) vaxtı diqqət yetirilsin və icra vaxtı monitorinq aparılsın. Əlavə 6.1. və 6.2.-də onların təsirinin zəiflədilməsi üçün istifadə edilə biləcək ən tipik tədbirlərin və təsirlərin icmalı verilmişdir.

Su təchizatı şəbəkəsi. Məcburi köçkünlər tərəfindən su təchizat şəbəkələrinə dair təqdim edilən mikrolayihələr lokal əhəmiyyətli şəbəkələr bağlıdır. Su təchizatı şəbəkələrinin təmir-bərpası və yaxud tikintisi ilə əlaqədar təsirlərə ehtiyatların rasional surətdə idarə edilməsi daxildir ki, həddən artıq çox istifadə ilə əlaqəli ekologiyaya mənfi təsirlər olmasın və təchizatın sonrakı istifadəsi zamanı çirklənməni aradan qaldırsın. Cədvəl 6.3.-də bir çox tipik təsirlərin və onları zəiflətmək üçün istifadə edilə biləcək tədbirlərin icmalı verilmişdir.
Kənd və yaxud rayon yolları. MKSİF yalnız lokal və icma xarakteri daşıyan çınqıl örtüklü yollarla bağlı mikrolayihələrlə məşğul olacaqdır. Yolların təmir-bərpası və yaxud tikintisi ilə əlaqədar təsirlərə, ümumiyyətlə, səs-küy, havanın keyfiyyətinə təsir və digər belə narahatlıqlar, avtomobil və piyadaların təhlükəsizliyi, drenacla təmin edilməsi və torpaq sürüşməsinin qarşısının alınması üçün istinad divarları və s. kimi digər yardımçı infrastrukturun təminatı daxildir. Əlavə 6.4.-də onları zəiflətmək üçün istifadə edilə biləcək ən tipik təsirləri və tədbirlərin icmalı verilmişdir.
Kanalizasiya və drenaj. Kənd yerlərində kanalizasiya üzrə mikrolayihələr əsasən lokal kanalizasiya şəbəkələrinin reabilitasiyasına xidmət edəcəkdir, şəhər ərazilərində isə mərkəzləşdirilmiş kanalizasiya şəbəkələrinin bir hissəsinin bərpası ilə bağlı olacaqdır. Drenaj üzrə mikrolayihələr əsasən açıq tipli drenaj şəbəkələrinə aid olacaqdır. Kanalizasiya və drenajın təmir-bərpası və yaxud tikintisi ilə əlaqədar təsirlər və onları zəiflətmək üçün istifadə edilə biləcək tədbirlər və ən tipik təsirlərin icmalı Əlavə 6.5-də verilmişdir.

**ii. Gənclər üçün kiçik biznes fəaliyyəti**

MKİİYL üzrə gənclər üçün kiçik biznes fəaliyyətlərinə sənətkarlıq, xidmət və kənd təsərrüfatı sahəsində və digər fəaliyyətlər daxil olacaqdır. Məcburi köçkünlərin məskunlaşdığı ərazilərdə yaşayış və fəaliyyətinin spesifikasını nəzərə alsaq bəzi açağıdakı təsirləri qeyd edə bilərik.
Hər bir təsir üçün qəbul oluna biləcək zəiflədici tədbirlər hər bir fəaliyyət növü üçün əlavələrdə təfərrüatlı verilmiş və aşağıda ümumiləşdirilmişdir. Lakin, təsirlərin dərəcəsi və həcmi öz növləri və həcmlərinə görə fərqlənəcəyinə görə, zəiflədici tədbirlər də dəyişə bilər.
Sənətkarlıq. Ümumiyyətlə, hər bir sənətkarlıq növü üçün ekoloji məsələlərə – ictimaiyyət və sənətkarlıq emalatxanasında təmir və layhələr həyata keçirilərkən şəxsin özünün və ya işçilərin sağlamlığına təhlükə, səs-küy, havanın keyfiyyətini korlayan tozun yaranması, torpaq və/ya suyun neft və mazutdan çirklənməsi, tullantı materialları, yerüstü axınlar və s. kimi bir və ya bir neçə ekoloji təsirlər daxil olacaqdır.
Hər bir kiçik biznes fəaliyyətinin dəstəklənməsi layihəsinin icra müddətinin əsasən 4 aydan çox olmaması gözlənildiyinə görə və işlərin eyni zamanda hər bir sahədə ola bilməyəcəyinə görə, benefisiarlar təsirlərin bəzilərini yalnız qısa müddətdə hiss edə bilərlər. Lakin, bəzi təsirlər eyni zamanda uzun müddətli ola bilər, məsələn, səs-küy, ekoloji cəhətdən həssas sahələrə təsirlər və s. Bu təsirlər/risklər, aşağıda və müvafiq əlavələrdə təklif edildiyi kimi, hər bir fəaliyyətlər üzrə spesifik tədbirlər vasitəsilə zəiflədilə bilər. Təsirlər və onları zəiflətmək üçün istifadə edilə biləcək tədbirlər və ən tipik təsirlərin icmalı Əlavə 6.6-də verilmişdir.
Kənd təsərrüfatı fəaliyyətləri. Gənclərin fəaliyyətinin əsas sahələri kənd təsərrüfatı işləri ilə bağlı ola bilər. Kənd təsərrüfatı işləri zamanı torpağın eroziyası, deqradasiyası, şoranlaşması, torpaqların münbit qatının məhv edilməsi, gübrələrdən və zərərvericilərə qarşı kimyəvi mübarizə vasitələrindən istifadə zamanı təhlükəsizlik qaydalarının pozulması və ifrat istifadə, kənd təsərrüfatı tullantıları ilə ətraf mühitin çirklənməsi kimi bir və ya bir neçə təsirlər olacaqdır. Kənd təsərrüfatı işləri ilə əlaqədar təsirlər və onları zəiflətmək üçün istifadə edilə biləcək tədbirlər və ən tipik təsirlərin icmalı Əlavə 6.7-də verilmişdir. Fəaliyyətlərin qısa müddətdə

həyata keçirilməsinə baxmayaraq, bəzi təsirlər, (məsələn torpaq sürüşmələri, şoranlaşma, torpaqların deqradasiyası, bərk məişət tullantıları ilə çirklənmə) uzun müddətli ola bilər.

Heyvandarlıq: Fermalarda mal-qara sayının çox olması ətraf mühitə ciddi təsir göstərir. Məsələn, heyvanların içməsi, otlaq sahələrin suvarılması və heyvanların təmizlənməsi kimi müxtəlif işlər üçün su tələb olunur. Mal-qaranın su mənbələrindən nəzarətsiz istifadəsi suyun keyfiyyətinə mənfi təsir göstərə bilər, belə ki, heyvanlar insanların da istifadə etdiyi suyu çirkləndirərək orada zərərli bakteriyaların toplanmasına səbəb ola bilərlər. Su, torpaq və havanın kənd təsərrüfatında istifadə olunan kimyəvi tullantılar və peyin səbəbindən çirklənməsi kimi təsirlər və bu təsirlərin azaldılması tədbirləri, o cümlədən ən səciyyəvi təsirlər Əlavə 6.8-də qeyd olunmuşdur.

Istirahət və əyləncə məkanları dedikdə kafe, kompüter mərkəzləri, foto və video sttudiyalar nəzərdə tutulur. Bu obyektlər tullantı sularını birbaşa təmiz suya axıtdıqları zamanı ətraf mühitə təsir göstərmiş olurlar. Nəticədə ətraf mühit tikinti işləri, məişət tullantılatı, o cümləfən yanacaq və yağlar, çirkab suları, zərərli tullantılarla çirkləndirilir. Digər təsirlər insan fəaliyyətlərinin heyvanlara və ya onların məskəninə yaxın olduğu zaman yaranır. Belə təsirlər tipikdir və lokal xarakter daşıyır. Təsirləri zəiflədici tədbirlər 6.9 Əlavəsində qeyd olunmuşdur.
Kanalizasiya və drenaj. Gənclərin fəaliyyəti ilə bağlı layihələr şəhər və kənd yerlərində emalatxanalarda kanalizasiya şəbəkəsinin quraşdırılması, kənd yerlərində isə torpaqlardan istifadə ilə əlaqədar drenaj şəbəkələrinə aid olacaqdır. Kanalizasiya və drenajın təmir-bərpası və yaxud tikintisi ilə əlaqədar təsirlər və onları zəiflətmək üçün istifadə edilə biləcək tədbirlər və ən tipik təsirlərin icmalı Əlavə 6.5-də verilmişdir.

### iii. Özünə Dəstək Qrupları üçün gəlirgətirən fəaliyyətlər

MKİİYL üzrə özünə dəstək qruplarının (ÖDQ) fəaliyyətləri üçün gəlir gətirəcək kiçik müəssisələrin maliyyələşdirilməsi üzrə layihələrə əsasən kənd yerlərindən yaşayan və kasıbçılıq səviyyəsindən aşağı səviyyyədə yaşayan insanların gəlir əldə etməsinə imkan verəcək müəssisələrin yaradılması və fəaliyyəti ilə əlaqədar layihələr daxil olacaqdır. Bu kimi layihələrə məsələn, özünəyardım qruplarının istahsal etdiyi kənd təsərrüfatı məhsullarının toplanması, ilkin emalı və satışı müəssisələri (məsələn, süd qəbulu, emalı və satışı üzrə kiçik müəssisə) ilə, SHG-in kənd təsərrüfatı alətləri ilə təmin edəcək kiçik müəssisələrin fəaliyyəti ilə, xırda tikiş və ya toxuculuq müəssisələri ilə bağlı layihələr və s. olacaqdır.
Hər bir təsir üçün qəbul oluna biləcək zəiflədici tədbirlər hər bir mikrolayihə növü üçün Əlavə 6.7 və 6.10-da əlavələrdə təfərrüatlı verilmiş və aşağıda ümumiləşdirilmişdir. Lakin, təsirlərin dərəcəsi və həcmi öz növləri və həcmlərinə görə fərqlənəcəyinə görə, zəiflədici tədbirlər də dəyişə bilər.
Kənd təsərrüfatı. Kiçik müəssisələrin fəaliyyəti zamanı torpaqların səhralaşması, istehsalat və məişət tullantıları ilə çirklənəsi, səs-küy, havaya tullantıların artması kimi bir və ya bir neçə təsirlər olacaqdır. Bu təsirlərin/risklərin zəiflədilməsi tədbirləri Əlavə 6.7-də göstərilmişdir. Fəaliyyətlərin bəzi təsirləri, məsələn səhralaşmaya səbəb ola biləcək təsirlər uzun müddətli, digər tədsrlər isə qısa müddətli ola bilər. Digər təsirlər - havanın, suyun, torpağın çirklənməsi lokal xarakterdə olacaqdır.
Xırda sənaye məhsulunun istehsalı. Kənd təsərrüfatı məhsullarının toplanması və emalı, toxuculuq və tikişçilik kimi sahələri əhatə edə bilər. Bu fəaliyyətlərin ətraf mühitə təsiri/risklər əhəmiyyətli olmayacaqdır. Bu təsir işçilərin sağlamlığına iş yerlərində zəif təsir edəcək səs-küy, havanın toz ilə çirklənməsi, ətraf mühitə atılacq istehsala və məişət tullantıları, suların çirklənməsi olacaqdır. Bu təsirlər lokal olacaq və onların zəiflədilməsi tədbirləri Əlavə 6.10-da göstərilmişdir.

Xidmətlər. Kənd təsərrüfatı işlərinə xidmət edəcək fəaliyyətlərdən, məsələn alətlər və xırda avdanlıqla təminat, SHG-in sosial həyat şəraitinin yaxşılaşmasına təsir edəcək fəaliyyətlərdən ibarət olacaqdır.
Bu fəaliyyətlərin ətraf mühitə təsiri/risklər lokal olacaqdır və əsasən, torpaqların və suların məişət tullantıları, neft məhsulları ilə çirklənməsində ifadə olunacaqdır. Bu təsirlərin zəiflədilməsi tədbirləri Əlavə 6.10-da göstərilənlərə müvafiqdir.

Yuxarıda qeyd olunan təsirlər bu mərhələdə nəzərdə tutulan işlər üçün əlavələrdə təhlil olunca da əvvəldən müəyyən edilməsi mümkün olumayan və yalnız müraciət edən icmaların prioritetləri əsasında müəyyən edilə bilən mikrolayihələr olacaqdır. Belə təkliflər üçün qeyri-münasib fəaliyyətləri müəyyən edəcək aşağıdakı seçim meyarlarından istifadə olunacaq :

- Mühafizə olunan ərazilərdəki fəaliyyətlər və ya mühafizə olunan əraziyə mənfi təsir göstərəcək fəaliyyətlər;
- Təbii su hövzələri kimi həssas ərazilərə aradan qaldırılması mümkün olmayan mənfi təsirlər göstərə biləcək fəaliyyət;
- Pestisidlərdən istifadə olunması nəzərdə tutulan fəaliyyətlər;
- Kimyəvi və digər zərərli maddələrlə torpağın çirlənməsinə səbəb olan maddələr;
- Torpaqların deqradasiyasına, şoranlaşmasına və torpaq sürüşmələrinə səbəb olan fəaliyyətlər istisna edilməlidir,
- Həmin yerə məxsus və ya mühafizə olunan flora və faunaya mənfi təsirlər göstərəcək, layihə ərazisində meşələrin qırılmasına səbəb olacaq fəaliyyətlər;
- Şoranlaşma və erroziya daxil olmaqla torpağın ciddi deqradasiyasına səbəb olaca fəaliyyətlər;
- Sel və torpaq sürüşməsi kimi fəlakətlər çətirib çıxardacaq fəaliyyətlər;
- Köçürülmə problemi yaradacaq və ya torpağın sahibinin dəyişməsinə səbəb olacaq fəaliyyətlər.

Yuxarıda qeyd olunan meyarlardan keçən fəaliyyətlər üçün EQ prosedurları və E bölümündə təsvir olunmuş xüsusi ƏMİP tətbiq olunacaqdır.

## D. İnstitusional mexanizmlər

MKYŞGİD layihəsinə – BİA krediti təsdiq edildikdən sonra seçiləcək mikrolayihələr üçün vəsaitlərin qrantla və ya kreditlə verilməsi daxil olduğuna görə Maliyyə Vasitəçisinin "B" kateqoriyası şamil edilmişdir. "B" kateqoriyalı layihə üçün, Dünya Bankı tələb edir ki, mikrolayihənin təsdiqindən əvvəl, təsdiqedici orqan mikrolayihənin qüvvədə olan müvafiq ekoloji qanunlara və OP/BG/GP 4.01-də təsvir edildiyi kimi, Ekoloji Qiymətləndirmə üzrə Dünya Bankının siyasət və proseduralarına uyğun gəlməsini təsdiq etməlidir. Buna əlavə olaraq, aşağıda təfərrüatlı verilən, ekoloji müvafiqlik üçün prosedurlar və təlimatlara ümumi təsdiq, eyni zamanda Ekologiya və Təbii Sərvətlər Nazirliyindən və digər aidiyyəti üzrə təşkilatlardan da layihənin qüvvəyə minməsindən əvvəl alınmalıdır. MKSİF yeni tikinti ilə bağlı mikrolayihələrin icrası zamanı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələri də bu mikrolayihələrin qiymətləndirilməsində iştiraka dəvət ediləcəkdir.

İqtisadi, maliyyə, institusional və mühəndislik analizlərində olduğu kimi, Ekoloji Qiymətləndirmə (EQ) layihə hazırlığının bir hissəsi olacaqdır və ona görə də bu, layihənin məsləhətçisinin məsuliyyətidir. EQ-yə cəlb olunan icmalar, konsultantlar və məsul hökumət orqanlarıdır.

Bütün infrastruktur mikrolayihələrin icrası MKSİF ilə bağlanmış müqavilələrə əsasən yerli podratçı təşkilatlar tərəfindən həyata keçiriləcəkdir. Podratçı təşkilatlar ətraf mühitlə bağlı məsələlərə mikrolayihənin icra müddəti ərzində məsuliyyət daşıyacaqdır və bu barədə müvafiq müddəalar podratçı ilə bağlanılan müqavilənin ayrılmaz hissəsi olan «İş həcmlərinin cədvəlində» (Əlavə 7) qeyd olunacaqdır.

MKSİF-in mikrokredit proqramı Vasitəçi Kredit Təşkilatları (VKT) tərəfindən MKSİF ilə bağlanmış müqavilə əsasında həyata keçriləcək.VKT-lər mikrokredit proqramının və VKT ilə bağlanmış müqavilənin əsas hissəsi olan Əlavə C-də təsvir olunmuş müvafiq fəaliyyətlərin icrasında ətraf mühitin idarə olunmasına cavabdehdir.

Mikrolayihələr üzrə məsul şəxs, mikrolahiyələrə nəzarət üzrə menecer (LİQ üzvü) mikrolahiyələrin ətraf mühitə təsirinin azaldılması üçün tələb olunan tədbirlərin icrasını təmin etməli, ƏMİP-ə uyğunluğunun monitorinqini keçirməlidir.

Icrası başa çatmış mikro-layihələrin, ətraf mühitlə bağlı aspektlər də daxil olmaqla fəaliyyət və istismarına görə mikro-layihə icraçıları və müvafiq yerli istismar təşkilatları məsuliyyət daşıyır. Eyni zamanda mikro-layihədən faydalanan icma da öz növbəsində mikro-layihə obyektinin fəaliyyət və istismarına görə cavabdehdir (*Əməliyyat Rəhbərliyi, Əlavə 11 "İcma mikro-layihə komitəsi ilə anlaşma protokolu").*

MKSİF əməkdaşları ekoloji standartlara uyğunluğu təmin etməlidirlər.

Ətraf mühitin idarə olunması üzrə menecer

MKSİF şurasının və LİQ üzvü kimi ətraf mühitin idarə olunması üzrə mütəxəssis lahiyələrin ətraf mühitə təsirinin azaldılması üçün fəaliyyətləri müəyyən etməli və layihənin icra mərhələsində bu fəaliyyətlərin yerinə yetirilməsinə nəzarət etməlidir.

## E. Ətraf mühitə təsirin qiymətləndirilməsinin icra mərhələləri.

Aşağıda verilən Sxem 1-də iddiaçılar (*icmalar*) və MKSİF heyəti tərəfindən təklif hazırlanmasının, qiymətləndirmənin, icranın və monitorinqin hər bir mərhələsində görüləcək tədbirlər təsvir edilir. Məcburi köçkün icmalarının institusional imkanları aşağı olduğundan mikrolayihələr üzrə təkliflər hazırlamasında və onların ilkin qiymətləndirilməsində MKSİF tərəfindən texniki köməklik göstəriləcəkdir. Buraya həmçinin ilkin ekoloji cəhətdən seçim və müvafiq ƏMQ kateqoriyasının təyinatı və müvafiq ƏMQ sənədlərinin hazırlanması da daxildir. ƏMQ sənədləri mikrolayihənin ilkin qiymətləndirilməsinin bir hissəsini təşkil edəcəkdir.

Mikro-layihə icraçıları və müvafiq istismar təşkilatları təklif olunan fəaliyyətlərin ətraf mühitə potensial təsirini müəyyən etməli, Ətraf mühit üzrə məlumat vərəqəsi hazırlamalı və tələb olunan zəiflədici tədbirləri müəyyən etməli və razılaşdırmalıdır.

<u>Ətraf mühitə təsir dərəcəsinə görə seçim.</u> Ərizə təqdim edən hər bir icma təklif olunan mikro-layihənin ətraf mühitə təsir dərəcəsinə görə ilkin qiymətləndirilməsini aparmalı və ətraf mühitə təsir kateqoriyasını təyin etməlidir. Ətraf mühitə təsir dərəcəsi üzrə ilkin qiymətləndirmə təklif təqdim olunmamışdan əvvəl yerinə yetirilməli, potensialı mənfi təsirlər müəyyən olunmalı və bu təsirlərin aradan qaldırılması tədbirlər təyin edilməlidir. Mikro-layihələr ətraf mühitə təsir kateqoriyasının seçimi üzrə ümumi nəzarət cədvəli Əlavə 2(a) kimi sənədə əlavə edilmişdir. MKSİF əməkdaşları və ya müqavilə ilə işə götürülmüş ekologiya mütəxəssisləri ilkin seçimdə və Ətraf mühitə təsir dərəcəsi üzrə seçim vərəqəsini doldurmaqda ərizəçilərə yardım edəcəkdir. Seçim üzrə nəzarət vərəqəsi Əlavə 2(b) şəklində əlavə edilmişdir.

<u>Ətraf mühitə təsirin qiymətləndirilməsi kateqoriyaları</u>. Seçim əsasında, hər bir mikrolayihəyə dörd ekoloji kateqoriyadan birinə aid edilməlidir:

- <u>Ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ)</u>- birbaşa və ya vasitəli şəkildə nəzərə çarpacaq təsirlərə malik mikro-layihələr bu kateqoriyaya aiddir. Bu mikro-layihələr MKYŞGİD Layihəsi çərçivəsində maliyyələşdirilməyəcəyi üçün onların tam ekoloji baxışının keçririlməsinə ehtiyac yoxdur. Ətraf mühitə təsirin tam qiymətləndirilməsi üçün

adətən mütəxəssis qrupu və obyektlərə dəfələrlə səfər etmək, layihəyə uyğun zəiflədici tədbirlər planı, ətraflı monitorinq və nəzarət planının tərtib edilməsi üçün zaman tələb olunur. Ətraf mühitə təsirin qiymətləndirilməsi MKSİF-in ətraf mühitin mühafizəsi üzrə mütəxəssisi tərəfindən hazırlanmalıdır.

- Məhdud Ekoloji Qiymətləndirmə (MEQ) – ətraf mühitə bəzi təsirləri olan və MKSİF-in ətraf mühitin mühafizəsi üzrə mütəxəssisi tərəfindən yoxlanılmalı olan mikro-layihələr bu kateqoriyaya aiddir. Belə mikro-layihələr B kateqoriyası kimi qiymətləndirilir. MEQ forması mikrolayihənin növünə üzrə spesifik olacaqdır və ətraf mühitin mühafizəsi üzrə mütəxəssi tərəfindən tövsiyə edilən zəiflədəci tədbirlər layihələndirmə mərhələsində nəzərə alınacaqdır. Əlavə 4-də içməli su təchizatı mikrolayihəsi üçün MEQ formasının nümunəsi verilmişdir. Ətraf mühitin mühafizəsi üzrə mütəxəssis ilkin vəziyyəti və obyektə məxsus potensial təsirləri öyrənmək üçün təklif olunan mikro-layihə obyektinə səfər etməlidir. MEQ tələb edən mikrolayihələrdə zəiflədici tədbirlərin həyata keçirildiyini və nəzərdə tutulmayan mənfi təsirlərin olub-olmadığını yoxlamaq üçün icra və fəaliyyət dövründə monitorinq keçirilməlidir. Zəiflədici tədbirlə və monitorinq planlarının hazırlanması üçün tövsiyə olunan formalar Əlavə 5-də (*A və B)* verilmişdir.
- Ekoloji baxış (EB)-nəzərdə tutulan təsirlərin standart nəzarət vərəqəsi və minimal təsiri olan mikro-layihələr üçün zəiflədici tədbirlər. Belə mikro-layihələr C kateqoriyasına aid edilir. EB mikro-layihənin qiymətləndirilməsinin bir hissəsi kimi qəbul edilə bilər. Ümumi ƏMB vərəqəsi Əlavə 3-də verilmişdir.
- Heç biri – daha heç bir Ətraf Mühitin Qiymətləndirilməsi aparılmayacaq.

EB, MEQ və ya ƏMTQ bu sənədə əlavə olunmuş əlavələrdə verilən ekoloji təlimatlar əsasında olacaqdır və mikrolayihələrə həm mənfi, həm də müsbət potensial ekoloji təsirləri müəyyənləşdirəcəkdir.

Dəqiq qiymətləndirmə (*dizayn*) prosesinin bir hissəsi kimi, mikrolayihənin dizaynerindən (*layihəçisindən)* mikrolayihədən irəli gələn hər hansı mənfi ekoloji təsirləri zəiflətmək və hər hansı zəruri hüquqi icazələri almaq tələb olunacaqdır. Hazırlanan sənədlərə Əlavə 5-də müəyyənləşdirilən formatda Ətraf Mühitə Təsirlərin Zəiflədilməsi və Monitorinqi Planının (ƏMTZMP) hazırlanması daxil ediləcəkdir. MKSİF-in heyəti bu təlimatda müəyyənləşdirilmiş prosedurlarla uyğunluğu təmin etmək üçün prosesin monitorinqinə cavabdeh olacaqdır və eyni zamanda, bu münasibətdə zəruri olduğu halda benefisiarlara yardım göstərəcəkdir.

Hər bir mikrolayihənin həm tikintisi, həm də sonrakı mərhələləri ərzində benefisiar mütəmadi monitorinq aparacaqdır ki, ƏMTZMP-nin tələblərinə və hüquqi icazələrdə müəyyənləşdirilmiş hər hansı digər ekoloji tələblərə müvafiqlik təmin edilsin. Ehtiyac olduğu halda, benefisiarlara MKSİF tərəfindən köməklik göstəriləcəkdir.

Prosedurlarla uyğunluğu təmin etmək və təsirləri mümkün qədər çox zəiflətmək üçün tələb olunan hər hansı sonrakı tədbirlər üzrə məsləhət vermək üçün, MKSİF kvalifikasiyalı konsultant firmaları və/ya QHT ilə kontrakt bağlayacaqdır ki, benefisiarları Ekoloji Qiymətləndirmə üzrə təlimatlandırsin, MEQ-nin hazırlanması və təkliflərin ekoloji aspektlərini qiymətləndirmək üçün köməklik göstərsin. MKSİF tərəfindən ekoloji cəhətdən mürəkkəb mikrolayihə qəbul edildiyi halda təcrübəli mütəxəssis işə götürüləcəkdir ki, bu mikrolayihəyə baxsın və məsləhətlər versin, MKSİF-in həyətinə köməklik göstərsin, və mikrolayihə üzrə təyin olunmuş konsultant firmasının işinə nəzarət etsin və ekoloji hesabatlar versin.

İcmalara ƏMİP üzrə ilk müşavirə 27.11.2015 tarixində Gəncədə keçirilmişdir. Iştirakçılar Gəncə və ətraf şəhərlərdən (Mingəçevir, Yevlax, Göygöl, Ağdam, Goranboy) olmuşlar. İkinci 04.12.2015-də Bakıda keçirilmiş və iştirakçıları Bakı və Sumqayıt icmalarını təmsil etmişdi. Ətraf mühit təhlükəsizliyi üzrə mütəxəssis bu sənəd və ətraf mühitin mühafizəsi qanunlarının əsas məqsədləri haqqında icmalarla konsultasiya keçirmişdir.

Görüşlərin məqsədi icmalara ƏMİP, Dünya Bankı və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ətraf mühitin mühafizəsi haqqında tələblərini təqdim etmək idi. Görüşlərdə layihələr üçün mümkün ekoloji təsirlər və yumşaldıcı tədbirlər müzakirə olunub. Bir hədəf kimi qərara alınmışdır ki , məcburi köçkünlər prioritet olaraq ekoloji cəhətdən təhlükəsiz layihələri müəyyən etməyə təşviq edilsin. Görüşlərin gündəliyi və müzakirələr Əlavədə 8-də açıqlanmışdır.

# Sxem 1. Ekoloji Qiymətləndirmə prosesi

**<u>Hədəf və təbliğat</u>**

***Məqsəd:*** ətraf mühitlə bağlı məsələlərin faydalananlara izah olunmasını təmin edilməsi

*Tədbirlər:* - faydalananların MKSİF-in **ətraf mühitlə** bağlı tələbləri haqqında məlumatlandırılması;
- **ətraf mühitə müsbət təsir** göstərəcək mikrolayihələrin dəstəklənməsi;
- Yerli ekoloji strategiyalara uyğunluq

**<u>Formalaşma</u>**

*Məqsəd:* ətraf mühitlə bağlı məsələlərin mikrolayihə dövrəsinin ən ilkin mərhələsində nəzərə alınmasının təmin edilməsi

*Tədbirlər:*
- tələb olduğu halda mikrolayihəni təqdim edənlərə birbaşa texniki yardım göstərilməsi və ya onlar üçün mikrolayihənin formalaşdırılmasında kömək edə biləcək təcrübəli mütəxəssisin cəlb edilməsi;
